Azərbaycan.- 2020.- 23 dekabr. S. 2.

# Tehranda Azərbaycan-İran əlaqələrinin perspektivləri müzakirə edilib

İranda səfərdə olan Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev dekabrın 22-də bu ölkənin energetika naziri Rza Ərdakanian ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə qarşılıqlı əlaqələrin inkişaf perspektivləri müzakirə edilib.

Şahin Mustafayev qeyd edib ki, Azərbaycan İran ilə münasibətlərin inkişafına xüsusi diqqət yetirir. Dünyanı çənginə alan koronavirus pandemiyasına baxmayaraq, dövlətlərimiz arasında müxtəlif sahələr üzrə əlaqələr davam etdirilir. Vurğulanıb ki, iki ölkənin birgə başladığı layihələri uğurla başa çatdırmaq əhəmiyyətlidir. Araz çayı üzərində Xudafərin və Qız Qalası su hidroqovşaqlarının inşasının tamamlanması ölkələrimizin enerji və kənd təsərrüfatı sahələrinə böyük fayda verəcək.

Baş nazirin müavini Qarabağın işğaldan azad olunmasına toxunaraq bildirib ki, Azərbaycan burada geniş tikinti və quruculuq işləri həyata keçirərək regionu yenidən bərpa edəcək. Ötən 7 ildə dövlətlər arasında imzalanan sənədlər üzrə işlər davam etdirilir. Hazırda İran, Azərbaycan və Rusiya arasında elektrik enerjisi mübadiləsi həyata keçirilir ki, bu da tərəflərin hər biri üçün faydalıdır. Azərbaycanın İran ilə sərhəddə yerləşən rayonlarının işğaldan azad edilməsi qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar yaradıb və bu imkandan istifadə etmək zəruridir. Azərbaycan- İran sərhədi dostluq və qardaşlıq sərhədidir və bu, digər dövlətlər üçün nümunədir.

Rza Ərdakanian deyib ki, İran Azərbaycanın işğaldan azad olunan ərazilərində su və elektrik sahəsini bərpa edə bilər. Bu istiqamətdə çalışmaq istəyən çoxlu şirkətlər var. Nazirin sözlərinə görə, İran Qarabağın bərpasında yaxından iştirak etməyə hazırdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bu və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov da iştirak edib.

Görüşdən sonra jurnalistlərin sualları cavablandırılıb.